Təsdiq edirəm
ADMİU-nun rektoru
__________Professor Ceyran Mahmudova
"12" "sentyabr" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7003015 – Rejissorluq ixtisasının**
**Mədəni-kütləvi tədbirlər rejissoru ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003015 – Rejissorluq ixtisası (İxtisaslaşma- Kütləvi tədbirlər rejissorluğu) üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- rejissor idarəçiliyi, iqtisadiyyatı və marketinqi ilə bağlı biliklərə malik olmaq;
- yaradıcılıq layihələrinin planlaşdırılması, təşkili və icrasına rəhbərlik etmək, onların büdcələşdirilməsi, təqdimatı və ictimaiyyətlə əlaqələrini koordinasiya etmək;
- beynəlxalq və yerli layihələri təşkil və idarə etmək, sərgilər, festivallar və müsabiqələr üçün orijinal konsepsiyalar hazırlamaq;

**Mədəni-kütləvi tədbirlər rejissoru ixtisaslaşması üzrə:**

- rejissor sənətinin elmi-nəzəri əsaslarını və praktik bacarıqlarını mənimsəməklə, onun yaradıcılıq imkanlarını mədəni-kütləvi tədbirlərin bədii və təşkilati həllində tətbiq etmək;
- kütləvi tədbirlərin təşkilində onun ideya və quruluş xüsusiyyətlərini, kompozisiya şərtlərini nəzərə almaqla auditoriyanı səfərbər etmək;
- kütləvi tədbirlərin təşkili üçün zəruri olan tərtibat elementlərinin məzmun, eləcə də estetik təsir funksiyalarının işlək mexanizminə bələd olmaq, rejissorluq, səhnə tərtibatı, geyim dizaynı, işıqlandırma və səs dizaynının nəzəri və praktiki aspektlərini əhatə edərək layihələrin idarə edilməsi, mədəni tədbirlərin marketinqi və yeni media texnologiyalarından istifadə haqqında biliklərə malik olmaq və onları fəaliyyət prosesində tətbiq etmək;
- kütləvi tədbirlərin, o cümlədən bayram və konsertlərin rejissorluq proseslərinin mövcud vəziyyətini dərindən təhlil etmək,kütləvi tədbirlər rejissorluğunda müasir tendensiyaları mənimsəyərək peşəkar fəaliyyətində tətbiq etmək;
- rejissor ideyanın realizə edilməsində auditoriyanın marağına səbəb olacaq tematik-bədii ifadəlilik prinsiplərinin kütləvi tədbirin başlıca məramına çevirməkdə yüksək səriştə nümayiş etdirmək, tədbirin yaradıcı və həyəcanlı keçirilməsini təmin edə bilmək;
- kütləvi tədbirlər rejissorluğunun nəzəri prinsiplərini bilmək və tətbiq etməyi bacarmaq;
- kütləvi tədbirlərə dair yerli və xarici rejissorluğun inkişafı haqqında sistemli nəzəri biliklərə yiyələnmək və onları yaradıcılığında istifadə etmək;
- kütləvi tədbirlər (bayramlar, festivallar və s.) rejissorluğunun tarixini, nəzəriyyəsini və üsullarını öyrənmək və tətbiq edə bilmək;
- müasir kütləvi tədbirlərin (bayramların və s.) dramaturgiyası haqqında biliklərə yiyələnmək və tətbiq etməyi bacarmaq

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| ○ Mədəni-kütləvi tədbirlər rejissoru | Magistr ali elmi-ixtisas | 1.5 il | 90 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | **54** |
| 1 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə yüksək səviyyədə bilik əldə edirlər. | 6 |

| | | |
|---|---|---|
| 2 | **Mədəni-kütləvi tədbirlər rejissorluğunun nəzəri əsasları**<br>Hər hansı mədəni-kütləvi tədbirlər tamaşasında ola biləcək kütləvi tədbirlərin dramaturji əsası həmin dramaturgiyanın bilavasitə təhlili onun konkret məkandakı tərtibat və yozum həlli, rejissorun təxəyyülü, istedadı və icra ustalığı ilə birbaşa bağlıdır. Bu zaman rejissor ssenarisinin, onun konseptual məramını konkret bədii ifadəsi kimi bilavasitə quruluş mədəniyyəti və ifadədəliyindən qaynaqlanaraq ərsəyə gəlir. Burada mövzu aktuallığı, həmin kütləvi tədbirin ideya istiqaməti, auditoriya tərkibi mütləq şəkildə nəzərə alınır. Belə ki, məhz mövzunun aktuallığı tamaşanın ali məqsədinin ünvanlandığı tamaşaçı auditoriyasına quruluşçu rejissorun ideya-estetik konsepsiyasını müxtəlif teatr vasitələri ilə çatdırılmasını nəzərdə tutur. Rejissor konsepsiyası isə özünün məna tutumu, təqdimat ustalığı ilə realizə edildikdə uğurlu nəticələr əldə edilir.<br>Rejissor çağdaş teatr fəaliyyətində ən önəmli mövqeyə malik olmaqla səhnə yaradıcılığının bədii ifadə vasitələrinin sayəsində ərsəyə gələn konkret tamaşa yaradıcıdır. Bu sənət K.S.Stanislavski, V.Meyerhold, B.Brext,Q.Kreq,Y.Vaxtanqov, Y.Qrotovski,G.Tovstonoqov,P.Bruk,L.Dodin,R.Viktyuk,T.Tahirov və başqalarının simasında zəngin nəzəri və praktik bazaya malikdir. Rejissor sənəti öz funksional mahiyyəti etibarı ilə tətbiqi sənətdir. Odur ki, onun yaradıcılıq arsenalı kifayət qədər tutumludur. Öz bədii-estetik,poetika arsenalının tətbiqini səhnə fəaliyyətində realizə edən rejissor sənəti tamaşa müəllifi kimi status qazanmışdır. | 6 |
| 3 | **Mədəni-kütləvi tədbirlər rejissorluğunun yaradıcılıq xüsusiyyətləri**<br>Mədəni kütləvi tədbirlər bir qayda olaraq konkret bir münasibətlə hazırlanır.<br>Həmin hazırlıq prosesi rejissor ssenarisinin əsası olan ədəbi mətnin və ya ssenarinin ideya-quruluş məqsədinin təcəssümə qədərki təhlil ilə başlıyır və tədbirin iştirakçılarına təfərrüatı ilə izah edilir. Bu zaman həmçinin rejissorun öz konsepsiyası ilə əlaqədar teatr vasitələri axtarışı, onların seçilmiş məkandakı kompozisiya prinsipləri müəyyən edilir. Burada başlıca niyyət nəzərdə tutulan mövzunun ideya-bədii teatrlaşdırılmış üslubda təqdimat formasının tapılmasını şərtləndirir. Bu isə özlüyündə, rejissorun fikrinin, yaradıcılıq məqsədinin hər şeydən əvvəl gələcək tədbirin məkan həlli, bədii tərtibat məsələləri ilə birbaşa bağlıdır. Yəni, nəzərdə tutulan mədəni-kütləvi tədbirlərin kompozisiya həlli bütünlükdə onun tərtibat elementlərinin uğurla tapılmasından asılıdır. | 6 |
| 4 | **Mədəni-kütləvi tədbirlər rejissorluğu**<br>Mədəni-kütləvi tədbirin rejissor fikirinə müvafiq olan həmin janrın ideya-estetik, tematik ifadə edilməsi üçün ən azı nəzərdə tutulan tamaşanın keçiriləcəyi məkanın müvafiq texniki imkanlara malik olması vacibdir. Çünki istənilən halda rejissor rəssamla bərabər hazırladığı tədbirin zaman -məkan həllini məhz sözü gedən məkanın texniki imkanları çərçivəsində realizə edə bilir. Bu baxımdan rejissorun təxəyyülündə formalaşan konsepsiya ən mükəmməl ideyası, mövzu aktuallığına malik olan tamaşanın belə zaman-məkan həllində çətinliklər yaradır. Halbuki məhz bu mühüm amil, yəni tamaşanın zaman-məkan həlli onun bədii bütövlüyünü, ifaçıların ustalığının faydalı iş əmsalına əhəmiyyətli təsir göstərir. | 6 |

| | | |
|---|---|---|
| 5 | **Aktyorla kütləvi səhnələrdə iş üsulları**<br>Bu fənn mədəni-kütləvi tədbirlər teatr tamaşalarında və səhnə əsərlərində kütləvi səhnələrin quruluşu zamanı aktyorla işin nəzəri və praktiki prinsiplərini öyrənməyə yönəlmişdir. Fənn çərçivəsində kütləvi səhnələrin dramaturji funksiyası, səhnə məkanında kütlənin təşkilati strukturu, fərdi və kollektiv aktyor davranışının uzlaşdırılması, ritm və tempin idarə olunması, plastik həll və səhnə mizanı quruculuğu məsələləri araşdırılır.<br>Tədris prosesində rejissorun kütləvi səhnələrdə aktyorla ünsiyyət modeli, aktyor ansamblının formalaşdırılması, diqqətin mərkəzləşdirilməsi, səhnə intizamının təmin edilməsi və emosional bütövlüyün yaradılması üsulları öyrədilir. Eyni zamanda kütləvi səhnələrdə hər bir aktyorun fərdi obraz xüsusiyyətlərinin qorunması və ümumi səhnə kompozisiyasına tabe edilməsi yolları praktik məşğələlər vasitəsilə mənimsədilir.<br>Fənn tarixi və müasir teatr təcrübəsinə əsaslanaraq klassik və çağdaş rejissor məktəblərinin (K.Stanislavski,V.Meyerhold, Y.Vaxtanqov və s.) kütlə ilə iş metodlarını təhlil edir. Praktik dərslərdə etüd çalışmaları, səhnə tapşırıqları və kollektiv improvizasiyalar vasitəsilə tələbələrin kütləvi səhnələrin quruluşu sahəsində peşəkar bacarıqları inkişaf etdirilir. | **6** |
| 6 | **Festival, bayram və s. tədbirlərin qurluşu**<br>Bu fənn festival, bayram və müxtəlif ictimai-mədəni mərasimlərin bədii-rejissor quruluşunun nəzəri və praktik əsaslarını öyrənməyə yönəlmişdir. Fənn çərçivəsində kütləvi tədbirlərin dramaturji strukturu, ideya-mövzu xəttinin müəyyənləşdirilməsi, ssenari quruluşu, məkanın bədii təşkili, zaman və ritm anlayışı, vizual və musiqi həllinin formalaşdırılması məsələləri araşdırılır.<br>Tədris prosesində milli və beynəlxalq festivalların, dövlət və xalq bayramlarının, rəsmi və qeyri-rəsmi mərasimlərin tarixi inkişaf mərhələləri, onların sosial-mədəni funksiyası və estetik xüsusiyyətləri təhlil edilir. Fənn festival və mərasimlərin təşkilində rejissorun rolu, yaradıcı və texniki heyətlə iş, kütlənin idarə olunması, iştirakçıların koordinasiyası və ümumi tədbir kompozisiyasının yaradılması üsullarını əhatə edir.<br>Praktik məşğələlərdə tələbələr ssenari planlarının hazırlanması, açılış və bağlanış mərasimlərinin quruluşu, səhnələşdirilmiş epizodların təşkili, simvolika və ritualların bədii həlli, müasir texniki vasitələrin (işıq, səs, multimedia) tətbiqi üzrə bacarıqlar əldə edirlər. Fənn milli mədəni irsə əsaslanan mərasimlərlə yanaşı, müasir festivalların innovativ quruluş modellərini də nəzərdən keçirir. | **6** |
| 7 | **Rejissor layihəsinin hazırlanması və təcəssüm prosesi**<br>Teatr sənətinin bütün komponentlərinin bir ideya ətrafında,rejissor və aktyor yaradıcılığı sayəsində bədii ifadəsini ehtiva edir. Bu, səhnə yaradıcılığının əlifbası ilə ədəbi mətnin semantikasının təhlili və həmçinin fərdi ifa tərzi sayəsində mümkün olur. Ədəbi əsərin, ssenarinin səhnə təcəssümü prosesi hər şeydən əvvəl tamaşanın mövzu aktuallığından qaynaqlanmaqla rejissor təxəyyülünün obrazlı səhnə ifadəsi şəkilində bədii maddiləşməsini nəzərdə tutur. Həmin təcəssüm prosesində müəyyən "təklif edilmiş şərait"də aktyor ifasının əldə edilmiş yaradıcı vasitələrlə axtarışları, eləcə də rejissor ustalığının ixtiraçılıq xüsusiyyətləri aşkarlanır. | **6** |

| | | |
|---|---|---|
| 8 | **Mədəni-kütləvi tədbirlərin təcəssüm mərhələləri**<br>Gələcək səhnə əsərinin təcəssümü rejissor sənətindən birbaşa asılıdır. Rejissorun ali məqsədinə müvafiq hesab etdiyi pyesin təhlilindən sonra onun səhnəqrafla yaradıcılıq əməkdaşlığı ilə təcəssümün konkret mərhələsi başlayır. Aktyorlar arasında aparılan rol bölgüsü gələcək tamaşanın eyhamı olmaqla təcəssüm işinin növbəti mərhələsidir. Ədəbi əsər üzərində stolarxası məşq prosesi təcəssüm işinin növbəti mərhələsi kimi əhəmiyyətlidir. Bu mərhələdə janrın və konfliktin, obrazlar arasında qarşılıqlı münasibətlərin müəyyən edilməsi, eləcə də personajların səhnə yozumu prinsiplərinin işlənməsi əsasdır. Mədəni-kütləvi tədbirlər üzərindəki işin səhnədə və ya meydançalarda davam etdirilməsi, həmçinin burada oyunun plastika həllinin axtarılması yaradıcılığın növbəti mərhələsidir. Mədəni-kütləvi tədbirlərin, tamaşanın təcəssüm işinin sonrakı mərhələsi olaraq ayrı-ayrı komponentlərin bədii səhnə ahəngdarlığının yaradılması xüsusi əhəmiyyət kəsb edir | **6** |
| 9 | **Yekun Buraxılış layihəsi üzərində iş**<br>Mədəni-kütləvi tədbirlər teatr sənətinin özünün yaradıcılıq həyatında, incəsənətin müxtəlif fəaliyyət sahələrinin nümunələri ilə, bədii bütövə nail olur. Hər hansı ədəbi əsərin səhnə təcəssümü təbii olaraq ideya-bədii oxunuş üçün nəzərdə tutulmuş məhdudiyyətlərdən çıxarıb daha fəal və canlı ifadə prinsiplərinə uyğunlaşdırılır. Qurluşçu heyyətin başda rejissor olmaqla öz estetika niyyətini tədbirlər vasitəsi ilə həyata keçirməsi prosesində tamaşanın bədii məna zənginliyi rəssamlığın, musiqinin, xoreoqrafiya, dizayn və s.sənətlərin ifadə imkanlarından bəhrələnməklə mükün olar. Bu isə özlüyündə səhnə fəaliyyətinin sinkretikliyini işarələyir. | **6** |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər**<br>*Müvafiq fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada ixtisaslaşmadan asılı olaraq müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında əksini tapır.* | **18** |
| 1 | **a) Mədəni-kütləvi tədbirlərin dramaturgiyası və ssenari ustalığı**<br>Məlumdur ki, səhnə ssenarisi ilə rejissor dramaturgiyası məzmun mahiyyəti, eləcə də, yaradıcılıq hədəfi olaraq fərqlidir. Səhnə ssenarisi ən maraqlı, tapıntıları ilə belə ədəbi əsər sayılmadığı halda, pyes dramaturji elementlərə sahib olmaqla ədəbiyyat növü hesab edilir.<br>Çağdaş dövrümüzdə teatrın ehtiyacından doğan rejissor- dramaturq şəxsiyyətinin formalaşması olduqca əlamətdar və teatr sənətinin inkişafı üçün faydalı ola bilərdi. Əlbəttə, bu şərtlə ki, həmin fəaliyyətin bədii istiqamətləri öyrənilməli, rejissorun yaradıcılıq müstəqilliyi adi şəkildə qəbul edilən zorakı sərbəstliyə çevrilməməli, böyük dəyər kəsb edən estetik məqsədlərə xidmət etməlidir.<br>**b) İşgüzar xarici dil**<br>Təhsil proqramının strukturu ümumi fənnlər bölməsində əks olunur və əsas fənnlər bölməsinin tərkibindədir. “Xarici dil (ingilis dili)” fənni magistratura səviyyəsində təhsil alan tələbələrə ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyət və adət-ənənələrini, nitq etiketləri qaydalarını öyrədir. Xarici dildə lüğətin | **6** |

| | | |
|---|---|---|
| | köməyi ilə oxumaq və yazmaq vərdişlərinə, ali tədris müəssəsində tədris və tədqiqat işləri aparmağa yiyələndirir. | |
| 2 | **a) Mədəni-kütləvi tədbirlərdə səhnə məkanı, dekorasiya və texniki dizayn əsasları**<br>İstənilən mədəni-kütləvi tədbirin ədəbi əsası, keçiriləcəyi məkan müəyyən edildikdən sonra onun quruluş prinsipi, məzmun tutumu, rejissor niyyətinin bədii, bütöv şəklində ifasını nəzərdə tutur. Mədəni-kütləvi tədbirlərin keçiriləcəyi məkan texniki baxımdan müvafiq texnologiyalarla təmin edilmiş səviyyədə olursa o zaman quruluşçu rejissorun yaradıcılıq fantaziyasının tam şəkildə realizə edilməsinə əlverişli şərait yaranır. Yəni bu zaman rejiisor müxtəlif səhnə texnologiyalarından, o cümlədən işıq effektlərindən, fərqli ölçülərdə səhnə dəzgahlarından, musiqi fonoqramalarından, virtual-təsviri elementlərdən, hər tərəfli istifadə etməklə öz konsepsiyasiyasını həyata keçirmək imkanı qazanmış olur.<br>**b) Mədəni-kütləvi tədbirlərdə musiqi və səs dramaturgiyası**<br>Musiqili tamaşa öz-özlüyündə spesifik mahiyyətə malikdir və teatr sənətinin sinkretikliyi məhz həmin tamaşada bütöv şəkildə öz ifadəsini tapır. Musiqili tamaşanın rejissoru vokalçıların və dramatik artislərin özünün oyunlarını bədii yozum şərtlərinə uyğunlaşdırıb auditoriyaya təqdim edir. Həmin yaradıcılıq prosesində rejissor musiqi dilini, tamaşanın zaman-məkan həllini, poetika xüsusiyyətlərini aktyor oyunu prinsiplərinə uyğunlaşdırır.<br>**c) Aktyorla yaradıcılıq əməkdaşlığının aspektləri**<br>Aktyorun rejissor konsepsiyasının realizəsində müstəsna yeri var. Rejissorla aktyorun həmfikirliyi yaradıcılıq prosesinin təminatçısıdır. Rejissorun gələcək mədəni-kütləvi tədbirlər tamaşasının səhnə konsepsiyasına müvafiq rol bölgüsü onun səhnə yozumudur. Stolarxası məşqlərdən başlayaraq rejissorun aktyorla yaradıcılıq işi, sənət müttəfiqliyinin başlanğıc mərhələsidir.<br>Rejissorun aktyorla əməkdaşlığında nüfuz və əxlaqi dəyərlərin həmçinin, sənət etikası məsələlərinin böyük əhəmiyyəti var. Aktyor şəxsiyyətinin estetik dünyagörüşü onun rejissorla yaradıcılıq prosesində püxtələşir. Səhnə obrazının təhlilində, yozum prinsiplərinin müəyyən edilməsində aktyorun rejissorla müştərək işinin səmərəsi aşkarlanır.<br>Rejissor göstəriləri və onun aktyorun rol üzərindəki işində əhəmiyyəti şübhəsizdir. Aktyorun yaradıcı təxəyyülünün emosional yaddaşının işə düşməsi, bu və ya digər “təklif edilmiş şəraitdə” oyun tərzinin tapılması onun rejissorla müştərək yaradıcılıq işinin başlıca xüsusiyyətləri hesab edilir. | **6** |
| 3 | **a) Mədəni-kütləvi tədbirlər rejissorluğunda müasir (işıq, multimedia və rəqəmsal) texnologiyaların funksiyası və rejissor işi**<br>"Müasir audiovizual texnikaların istifadə metodları" fənni teatr, kino, televiziya və rəqəmsal sənət sahələrində istifadə olunan yeni nəsil audiovizual vasitələrin funksiyalarını, tətbiq mexanizmlərini və yaradıcılıq imkanlarını öyrənən nəzəri-praktik dərsdir. | **6** |

| | | |
|---|---|---|
| | Fənn işıq sistemləri, səsləndirmə texnikası, mikrofonlaşdırma, video proyeksiya, rəqəmsal montaj proqramları və interaktiv vizuallar kimi müasir vasitələrin səhnə və ekran sənətində tətbiqini sistemli şəkildə analiz edir.<br>Dərs tələbələrə audiovizual effektlərin qurulması, texniki avadanlığın seçilməsi və idarə olunması, müasir media vasitələrinin estetik funksiyası, həmçinin rəqəmsal materialların yaradıcı məqsədlərlə inteqrasiyası haqqında praktiki bilik və bacarıqlar qazandırır.<br>**b) Mədəni-kütləvi tədbirlərin plastika və bədii həlli**<br>Hər hansı mədəni-kütləvi tədbirlər tamaşasının quruluşu rejissorun aktual mövzu axtarışı ilə sıx bağlıdır. Rəssam tərəfindən rejissor fikrinin obrazlı təsviri üçün gələcək tamaşanın obrazının, məkan-zaman şərtlərinin tapılması olduqca önəmlidir. Aktyorlar arasında aparılan rol bölgüsü ilə başlanan yaradıcılıq prosesində tamaşanın, bədii ifadəlilik və plastika həllinin tapılmasının və bu zaman aktyorlarla axtarış prosesində həmin səhnə həllinin cilalanması böyük əhəmiyyət kəsb edir. | |

| | | |
|---|---|---|
| | **Təcrübə** | |
| | **Elmi-pedaqoji təcrübə**<br>Tədris prosesində elmi-pedaqoji təcrübənin müstəsna əhəmiyyəti var. Belə ki, düzgün metod və üsulların öyrənilməsi, vacib pedaqoji təcrübənin əsas vəzifəsi magistr tələbələrin daim yaradıcı axtarışlara yönəldilməsi və ifaçılıq ştampları ilə mübarizə aparmaq çağdaş teatr sənətində olduqca aktualdır. Tələbə rejissor bu sənətin nəzəri əsaslarını öyrənməklə bərabər bilavasitə onun yaradıcılıq fəaliyyətinin əsas xüsusiyyətlərinə də bələd olur. Tədris prosesində tələbə rejissor aktyorla işin peşə vərdişlərinin tətbiq üsullarından bəhrələnir. Bu zaman o, "təklif edilmiş" şəraitlərin icrası üçün sənət vərdişlərindən istifadə edilməsi, həmçinin ifa tərzinin tapılması işində aktyoru istiqamətləndirir. Tədris prosesində faydalandığı elmi-nəzəri bilgilərə yiyələnmək üçün tələbə bir sıra ədəbiyyatlardan, o cümlədən G.Tovstonoqov, L.Dodin, K.Serebrennikov, R.Uilson və b.sənətkarların yaradıcılıq metodunu öyrənməlidir. | 6 |
| **CƏMİ** | | **90** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir. Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

***Mədəni-kütləvi tədbirlər rejissoru ixtisaslaşması üzrə:***

- müasir proqram təminatı və texniki avadanlıqla (mikrofonlar, səs kartları, studiya monitorları və s.) təchiz olunmuş məkan;
- Komputer laboratoriyası – musiqi və səhnə texnologiyaları ilə işləmək üçün xüsusi proqramlarla (DAW – Digital Audio Workstation, səhnə işıqlandırma proqramları, not proqramları və s.) təchiz olunmuş iş stansiyaları;
- Vizuallaşdırma və təqdimat texnikası ilə təchiz olunmuş sinif otaqları – təqdimatlar, videoanaliz və tədris məqsədli baxışlar üçün proyektor, ekran və multimedia avadanlığı;
- Kostyum və dekor emalatxanası – səhnə kostyumlarının, rekvizitlərin və dekor elementlərinin hazırlanması və saxlanması üçün emalatxana və anbar sahəsi.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Rejissorluq ixtisası üzrə magistratura təhsili almış mütəxəssis sahəsinə müvafiq olaraq işləyə bilər:

***Mədəni-kütləvi tədbirlər rejissoru ixtisaslaşması üzrə:***

Mədənəyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, televiziya strukturları və s. qurumlarda kütləvi tədbirlərin keçirilməsi nəzərdə tutulan layihə rəhbəri, rejissoru; dövlət, özəl və bələdiyyəyə aid müvafiq qurumların təşkilatçısı, rəhbəri və s.; orta və ali təhsil müəssisələrində pedaqoq; reklam və PR agentliklərində bədii rəhbər, mədəni layihələrin və festivalların kuratoru; yerli və beynəlxalq festivallarda, müsabiqələrdə təşkilatçı, layihə rəhbəri və s. işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**
***Mədəni-kütləvi tədbirlər rejissoru ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Rejissorluq sənətinin əsas keyfiyyətlərinə yiyələndiyi üçün onun yaradıcılıq diapazonunun mədəni-kütləvi tədbirlər miqyasında tətbiqi prinsiplərini biləcək. Kütləvi tədbirlər (bayramlar, festivallar və s.) rejissorluğunun tarixini, nəzəriyyəsini və üsullarını öyrənəcək. Kütləvi tədbirlər (bayramlar və s.) s rejissorluğunun nəzəri prinsiplərini biləcək və tətbiq etməyi bacaracaq. Müasir kütləvi tədbirlərin ( bayramların və s.) dramaturgiyası haqqında biliyə malik olacaq. Həmçinin konsert və əyləncə, təhsil, idman və mədəniyyət sahələri üçün təşkil edilən tədbirlərin spesifikasını nəzərə alaraq rejissor həllini təqdim etməyi bacaracaq. Kütləvi tədbirlərə dair yerli və xarici rejissorluğunun inkişafı haqqında sistemli nəzəri biliklərə yiyələnəcək və tətbiq edəcək. |
| **PTN 2.** Kütləvi tədbirlərin təşkilində onun ideya və quruluş xüsusiyyətlərini kompozisiya şərtlərini nəzərə almaqla auditoriyanı səfərbər etmək qabiliyyətinə malik olacaq. Kütləvi tədbirləri (bayramlar və s-.ni) səhnələşdirməyi bacaracaq ( tədbirin konsepsiyasını qurmaq və həyata keçirmək, ssenari ilə işləmək və onun səhnədə icrasını təmin etmək, qruplarla və ifaçılarla işləmək, iştirakçıların tərkibini seçmək, səhnə, işıq və səs ustaları ilə danışıqlar apararaq tədbirin, bayramın yaradıcı və həyəcanlı keçirməyini təmin edə biləcək). |
| **PTN 3.** Kütləvi tədbirlərin təşkili üçün zəruri olan tərtibat elementlərinin məzmun, eləcə də estetik təsir funksiyalarına və mexanizmlərinə bələd olacaq. Rejissorluq, səhnə tərtibatı, geyim dizaynı, işıqlandırma və səs dizaynının nəzəri və praktiki aspektlərini biləcək, həmçinin layihələrin idarə edilməsi, mədəni tədbirlərin marketinqi və yeni media texnologiyalarından istifadə haqqında biliyə malik olacaq. |
| **PTN 4.** Bədii konsepsiyanın yaradılması, tamaşaların idarə edilməsi və hazırlanması, aktyorlar və texniki kollektivlərlə işləmək, habelə mədəni layihələrin planlaşdırılması və həyata keçirilməsi bacarıqlarına yiyələnəcək və tətbiq edəcək. |
| **PTN 5.** Rejissor ideyanın realizə edilməsində auditoriyanın marağına səbəb olacaq tematik-bədii ifadəlilik prinsiplərinin kütləvi tədbirin başlıca məramına çevirməyi bacaracaq. Şənlik tədbirlərinin təşkili və keçirilməsi, idman, mədəniyyət və incəsənət sahəsində layihələrin idarə edilməsi haqqında biliyə malik olacaq. Həmçinin layihələrin idarə edilməsi, mədəni tədbirlərin marketinqi və yeni media texnologiyalarından istifadəni haqqında biliklərə malik olacaq. |
| **PTN 6.** Teatr rejissorluğu ilə kütləvi tədbirlər (bayramlar və s.) arasındakı əlaqəni dərk edəcək. Müasir mədəni, texniki, sosial tendensiyaları izləyərək müasir əyləncə və media mədəniyyəti sahəsində peşəkar bacarıqlara malik olacaq. |
| **PTN 7.** Müasir audiovizual avadanlıqları tanıyacaq, onlardan istifadə etməyi bacaracaq. Müasir kütləvi tədbirlərin ( bayramlar və s.-) layihələndirilməsi texnologiyasını biləcək. |
| **PTN 8.** Rejissor idarəçiliyi, iqtisadiyyat və marketinqi ilə bağlı biliklərə malik olacaq. |
| **PTN 9.** Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Rejissorluq sahəsində elmi-metodiki və pedaqoji səviyyədə təlim və tədris prosesini aparmağı bacaracaq. |

| |
|---|
| **PTN 10.** Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışacaq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| **PTN 11.** Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirməyi bacaracaq. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olacaq və tətbiq etməyi bacaracaq. |

| **Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| **Layihələrin idarə edilməsi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| **Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |

| |
|---|
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 – Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

| **Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| **Mədəni-kütləvi tədbirlər rejissorluğunun nəzəri əsasları fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Mədəni-kütləvi tədbirlərin mahiyyətini, məqsəd və funksiyalarını izah edə biləcək. |
| **FTN 2.** Rejissorluğun əsas anlayış və xüsusiyyətlərini şərh edə biləcək. |
| **FTN 3.** Mədəni-kütləvi tədbirlərin tarixi inkişaf mərhələlərini təhlil etməyi bacara biləcək. |
| **FTN 4.** Rejissorun yaradıcı və təşkilati fəaliyyətinin əsas prinsiplərini müəyyən edə biləcək. |
| **FTN 5.** Müasir mədəni mühitdə mədəni-kütləvi tədbirlərin rolunu dəyərləndirə biləcək. |
| **FTN 6.** Müasir mədəni proseslərdə mədəni-kütləvi tədbirlərin rolunu müəyyələşdirə biləcək. |

| **Mədəni-kütləvi tədbirlər rejissorluğunun yaradıcılıq xüsusiyyətləri fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Tamaşanın ideya-estetik əsaslarını müəyyənləşdirə biləcək. |
| **FTN 2.** Rejissor konsepsiyasının əsas komponentlərini (mövzu, ideya, forma, üslub) izah edə biləcək. |
| **FTN 3.** Ssenarinin təhlili əsasında konseptual yanaşma formalaşdıra biləcək. |
| **FTN 4.** Səhnə təsvirinin, musiqi və ritmin konsepsiya ilə əlaqəsini əsaslandıra biləcək. |
| **FTN 5.** Konsepsiyanın aktyor ifası və mizan quruluşu ilə uyğunluğunu təmin edə biləcək. |
| **FTN 6.** Rejissor mədəni-kütləvi tədbirlər tamaşasının konsepsiyasını yaradıcı qrupa əsaslandırılmış şəkildə təqdim etməyi bacaracaq. |

| **Mədəni-kütləvi tədbirlərin dramaturgiyası və ssenari ustalığı fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Mədəni-kütləvi tədbirlərin dramaturji quruluşunu izah edə biləcək. |
| **FTN 2.** Ssenarinin struktur elementlərini (ekspozisiya, inkişaf, kulminasiya, final) müəyyənləşdirməyi bacaracaq. |
| **FTN 3.** Mövzu, ideya və konflikt anlayışlarını praktik nümunələrlə əsaslandırmağa nail ola biləcək. |
| **FTN 4.** Müxtəlif tip mədəni-kütləvi tədbirlər üçün ssenari hazırlamağı bacara biləcək. |
| **FTN 5.** Dramaturji materialı rejissor baxımından təhlil etməyi dərk edə biləcək. |
| **FTN 6.** Mədəni-kütləvi tədbirlərin dramaturgiyası və ssenari ustalığı haqqında bilgilərə sahib ola biləcək. |

| **İşgüzar xarici dil fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Tələbə akademik yazı və danışıq qaydalarını, elmi dürüstlük prinsiplərini izah edə biləcək. |
| **FTN 2.** Tələbə elmi məqalənin strukturu və əsas komponentlərini sadalaya biləcək. |
| **FTN 3.** Tələbə akademik və işgüzar sənədləri (məktub, müraciət, CV, hesabat və s.) xarici dildə düzgün tərtib edə biləcək. |
| **FTN 4.** Tələbə esse yazma qaydalarını tətbiq edərək müxtəlif mövzularda esse hazırlaya biləcək. |
| **FTN 5.** Tələbə elmi məqalələri struktur, məzmun və üslub baxımından təhlil edə biləcək. |
| **FTN 6.** Tələbə nəşr etikası normalarını (istinad, müəlliflik hüquqları, plagiat) qiymətləndirə və öz işində tətbiq edə biləcək. |

| **Mədəni-kütləvi tədbirlərdə səhnə məkanı, dekorasiya və texniki dizayn əsasları fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Mədəni-kütləvi tədbirlər üçün səhnə məkanının prinsiplərini, dekorasiya və texniki dizaynın əsas funksiyalarını izah edəcək. |
| **FTN 2.** Tədbirin ideya və rejissor konsepsiyasına uyğun səhnə dekorasiyasını və texniki dizayn həllərini planlaşdıracaq. |
| **FTN 3.** Səhnə məkanının açıq və qapalı məkana uyğun quruluşunu təşkil edir və vizual kompozisiyanı formalaşdıracaq. |
| **FTN 4.** Texniki heyətlə əməkdaşlıq edərək işıqlandırma, səs və vizual texnologiyaların tətbiqini həyata keçirəcək. |
| **FTN 5.** Dekorasiya və texniki dizayn vasitələrinin dramaturji və bədii-estetik uyğunluğunu təmin edəcək. |
| **FTN 6.** Mədəni-kütləvi tədbirlərdə səhnə məkanı, dekorasiya və texniki dizaynın nəticələrini təhlil edib qiymətləndirəcək. |

| Mədəni-kütləvi tədbirlərdə musiqi və səs dramaturgiyası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Mədəni-kütləvi tədbirlərdə musiqi və səsin dramaturji və bədii-estetik rolunu izah edəcək. |
| **FTN 2.** Tədbirin ideya və rejissor konsepsiyasına uyğun musiqi və səs dramaturgiyası prinsiplərini müəyyənləşdirəcək. |
| **FTN 3.** Aktyorların, iştirakçıların və kütlənin səhnə fəaliyyətini musiqi və səs vasitələri məqsədəuyğun tərzdə uyğunlaşdırılacaq. |
| **FTN 4.** Texniki heyətlə əməkdaşlıq edərək səs, musiqi, mikrofon və digər texnoloji vasitələrin tətbiqini həyata keçirəcək. |
| **FTN 5.** Mədəni-kütləvi tədbirin dramaturji strukturu və vizual quruluşu ilə musiqi-səs elementlərinin sintezini təmin edəcək. |
| **FTN 6.** Musiqi və səs dramaturgiyasından bəhrələnərək tədbirin ümumi bədii-estetik səviyyədə təsirini təhlil edib qiymətləndirəcək. |

| Aktyorla yaradıcılıq əməkdaşlığının aspektləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Aktyor yaradıcılığının psixoloji və ifa prinsiplərini təhlil edəcək. |
| **FTN 2.** Rejissor-aktyor əməkdaşlığının uğurlu perspektivinin mühüm şərtlərini dərk edəcək. |
| **FTN 3.** Yaradıcılıq əməkdaşlığının ayrı-ayrı aspektlərini müəyyən edəcək. |
| **FTN 4.** Tamaşa üzərindəki iş prosesində aktyorla əməkdaşlığın yaradıcılıq həmrəylinin əhəmiyyətini öyrənəcək. |
| **FTN 5.**Aktyorla əməkdaşlıq zamanı onun vətəndaş, sənətçi mövqeyinin ali məqsədə uyğunlaşmasındakı səmərəyə nail olacaq. |
| **FTN 6.** Rejissorun aktyorla səmərəli yaradıcılıq əməkdaşlığına nail olacaq. |

| Mədəni-kütləvi tədbirlər rejissorluğu fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Tamaşanın təcəssüm işinə başlamaq şərtlərini öyrənə biləcək. |
| **FTN 2.** Tamaşanın zaman-məkan, həmçinin bədii tərtibat həlli prinsiplərinə bələd ola biləcək. |
| **FTN 3.** Gələcək tamaşanın aktyorlar arasında rol bələdçiliyinə nail olamağı bacaracaq. |
| **FTN 4.** Tamaşanın stolarxası oxunuş müddətində, janr, konflikt, ali məqsədlə bağlı niyyət bildirməyi bacaracaq. |
| **FTN 5.**Rejissor tələbə hazırlayacağı tamaşanın ideya istiqamətini quruluş mədəniyyəti ilə,mizanların dili ilə ifadə edə biləcək. |
| **FTN 6.** Mədəni-kütləvi tədbirlər tamaşasının bədii bütövlüyünü qoruyaraq, ideya-estetik məzmunlu səhnə məhsulu kimi təqdim edə biləcək. |

| Aktyorla kütləvi səhnələrdə iş üsulları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Mədəni-kütləvi tədbirlərin rejissor quruluşunda kütləvi səhnələrin dramaturji rolunu və funksiyasını izah edə biləcək. |
| **FTN 2.** Aktyorla kütləvi səhnələrdə işin nəzəri, metodoloji və rejissor prinsiplərini tətbiq edəcək. |
| **FTN 3.** Kütlə psixologiyasını nəzərə alaraq aktyor və iştirakçı kütlənin səhnə davranışını idarə edəcək. |
| **FTN 4.** Açıq və qapalı məkanlarda kütləvi səhnələrin rejissor həllini hazırlayır və praktik şəkildə həyata keçirəcək. |
| **FTN 5.** Kütləvi səhnələrin quruluşunda aktyor ansamblının, səhnə mizanlarının ritmin və səhnə bütövlüyünün təmin olunmasını təşkil edəcək. |
| **FTN 6.** Mədəni-kütləvi tədbirlərdə kütləvi səhnələrin bədii-estetik təsirini təhlil edib qiymətləndirəcək. |

| Festival, bayram və s. tədbirlərin quruluşu fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Festival, bayram və mərasimlərin dramaturji əsaslarını və rejissor quruluş prinsiplərini izah edəcək. |
| **FTN 2.** Müxtəlif tipli mədəni-kütləvi tədbirlər üçün rejissor konsepsiyası və ssenari həlli hazırlayacaq. |
| **FTN 3.** Festival, bayram və mərasimlərin səhnə kompozisiyasını, ritmini və vizual quruluşunu təşkil edəcək. |
| **FTN 4.** Açıq və qapalı məkanlarda keçirilən tədbirlərdə kütləvi səhnələrin rejissor idarəetməsini həyata keçirəcək. |
| **FTN 5.** Aktyorlar, aparıcılar və iştirakçı kütlə ilə rejissor işi apararaq yaradıcı ansamblı formalaşdıracaq. |
| **FTN 6.** Festival, bayram və mərasimlərin bədii-estetik səviyyəsini təhlil edir və qiymətləndirəcək. |

| Mədəni-kütləvi tədbirlər rejissorluğunda müasir (işıq, multimedia və rəqəmsal) texnologiyaların funksiyası və rejissor işi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Mədəni-kütləvi tədbirlərdə istifadə olunan müasir işıq, multimedia və rəqəmsal texnologiyaların funksiyalarını və bədii imkanlarını izah edəcək. |
| **FTN 2.** Rejissor konsepsiyasına uyğun olaraq işıq, multimedia və rəqəmsal vasitələrin tətbiq prinsiplərini müəyyənləşdirəcək. |
| **FTN 3** Mədəni-kütləvi tədbirlərin quruluşunda işıq, video-proyeksiya, səs və rəqəmsal texnologiyaların sintezini təşkil edəcək. |
| **FTN 4.** Texniki və yaradıcı heyətlə (işıqçı, video-dizayner, multimedia mütəxəssisi və s.) rejissor əməkdaşlığını həyata keçirəcək. |

| |
|---|
| **FTN 5.** Açıq və qapalı məkanlarda keçirilən tədbirlərdə texnoloji həllərin dramaturji və vizual təsirini təmin edəcək. |
| **FTN 6.** Müasir texnologiyaların mədəni-kütləvi tədbirlərin bədii-estetik səviyyəsinə təsirini təhlil edəcək və qiymətləndirəcək. |

| **Mədəni-kütləvi tədbirlərin plastika və bədii həlli fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Mədəni-kütləvi tədbirlərin quruluşunda plastika və bədii həllin dramaturji rolunu izah edəcək. |
| **FTN 2.** Tədbirin ideya və rejissor konsepsiyasına uyğun plastik ifadə vasitələrini müəyyənləşdirəcək. |
| **FTN 3.** Aktyorların və iştirakçı kütlənin səhnə hərəkətini, plastik kompozisiyasını və ritmini quracaq. |
| **FTN 4.** Musiqi, xoreoqrafiya, səhnə hərəkəti və vizual elementlərin sintezini təşkil edəcək. |
| **FTN 5.** Açıq və qapalı məkanlarda plastika və bədii həllin məkanla uyğunluğunu təmin edəcək. |
| **FTN 6.** Mədəni-kütləvi tədbirlərin plastik və bədii həllini təhlil edəcək və bədii-estetik baxımdan qiymətləndirəcək. |

| **Rejissor layihəsinin hazırlanması və təcəssüm prosesi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Mədəni-kütləvi tədbirlər üçün rejissor layihəsinin mahiyyətini, strukturunu və mərhələlərini izah edəcək. |
| **FTN 2.** Tədbirin ideya-bədii konsepsiyasını, rejissor yozumunu və dramaturji həllini hazırlayacaq. |
| **FTN 3.** Rejissor layihəsinin eskiz, plan, texniki tapşırıq və vizual materiallarını formalaşdıracaq. |
| **FTN 4.** Rejissor layihəsinin praktik təcəssümünü aktyorlar, yaradıcı və texniki heyətlə əməkdaşlıq şəraitində həyata keçirəcək. |
| **FTN 5.** Açıq və qapalı məkanlarda rejissor layihəsinin səhnə, texniki və təşkilati uyğunluğunu təmin edəcək. |
| **FTN 6.** Reallaşdırılmış rejissor layihəsini bədii-estetik və peşəkar baxımdan təhlil edir və qiymətləndirəcək. |

| **Mədəni-kütləvi tədbirlərin təcəssüm mərhələləri fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Mədəni-kütləvi tədbirlərin təcəssüm mərhələlərini və hər mərhələnin rejissor üçün rolunu izah edəcək. |
| **FTN 2.** Tədbirin ideya və konsepsiyasına uyğun planlaşdırma, eskiz və texniki hazırlıq mərhələlərini həyata keçirəcək. |
| **FTN 3.** Aktyorlar, iştirakçılar və yaradıcı heyətlə məşq və sınaq mərhələlərini təşkil edəcək və idarə edəcək. |

| |
|---|
| **FTN 4.** Açıq və qapalı məkanlarda tədbirin praktiki icrasını, səhnə, texniki və vizual uyğunluğu təmin edərək həyata keçirəcək. |
| **FTN 5.** Tədbirin icra mərhələsində yaranan problemləri müəyyən edir və peşəkar həll yolları tətbiq edəcək. |
| **FTN 6.** Tədbirin təcəssüm mərhələlərinin nəticələrini təhlil edəcək, bədii-estetik və texniki qiymətləndirmə aparacaq. |

| Yekun Buraxılış layihəsi üzərində iş fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Yekun buraxılış layihəsinin məqsəd və mövzusunu müəyyən edəcək və layihənin ideya-bədii konsepsiyasını hazırlayacaq. |
| **FTN 2.** Layihənin ssenari, dramaturji və texniki planını tərtib edəcək, praktiki icra mərhələlərini planlaşdıracaq. |
| **FTN 3.** Aktyorlar, iştirakçılar və yaradıcı-texniki heyətlə koordinasiyalı şəkildə iş aparacaq. |
| **FTN 4.** Layihənin açıq və qapalı məkanlarda təcəssümünü həyata keçirəcək, səhnə, texniki və vizual uyğunluğu təmin edəcək. |
| **FTN 5.** Layihənin icrası zamanı ortaya çıxan problemləri müəyyən edəcək və peşəkar həllər tətbiq edəcək. |
| **FTN 6.** Yekun buraxılış layihəsinin bədii-estetik, texniki və təşkilati nəticələrini təhlil edəcək və qiymətləndirəcək. |

**Əlavə 2**

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 | PTN 11 |
| Akademik yazı və etika | | | | | | | | | | X | |
| Layihələrin idarə olunması | | | | X | | | X | X | | | X |
| Ali məktəb pedaqogikası və psixologiya | | | | | | | | | X | | |
| Elmi-pedaqoji təcrübə | | | | | | | | | X | | |
| Mədəni-kütləvi tədbirlər rejissorluğunun nəzəri əsasları | X | X | | | | | | | | | |
| Mədəni-kütləvi tədbirlər rejissorluğunun yaradıcılıq xüsusiyyətləri | X | X | | | | | | | | | |
| Mədəni-kütləvi tədbirlərin dramaturgiyası və ssenari ustalığı | X | X | | X | | | | | | | |
| İşgüzar xarici di | | | | | | | | | | X | |
| Mədəni-kütləvi tədbirlərdə səhnə məkanı, dekorasiya və texniki dizayn əsasları | | | X | | | X | X | | | | |
| Mədəni-kütləvi tədbirlərdə musiqi və səs dramaturgiyası | | X | | | | X | | | | | |
| Aktyorla yaradıcılıq əməkdaşlığının aspektləri | | X | | X | | | | | | | |
| Mədəni-kütləvi tədbirlər rejissorluğu | X | | X | | X | X | | X | | | |
| Aktyorla kütləvi səhnələrdə iş üsulları | X | X | | X | | | | | | | |
| Festival, bayram və s. tədbirlərin quruluşu | | | X | | X | | | | | | |
| Mədəni-kütləvi tədbirlər rejissorluğunda müasir (işıq, multimedia və rəqəmsal) texnologiyaların funksiyası və rejissor işi | | | | X | | X | X | | | | |
| Mədəni-kütləvi tədbirlərin plastika və bədii həlli | | | X | | X | | | | | | |
| Rejissor layihəsinin hazırlanması və təcəssüm prosesi | X | X | | X | X | X | X | | | | |
| Mədəni-kütləvi tədbirlərin təcəssüm mərhələləri | X | X | | X | X | X | X | | | | |
| Yekun Buraxılış layihəsi üzərində iş | X | X | | X | X | X | X | X | X | X | X |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Dram rejissoru və səhnə plastikası kafedrasının müdiri:** ____________ **İsrafil İsrafilov**

**ADMİU-nun Teatr sənəti fakültəsinin dekanı:** ____________ **Kəmalə Mehdiyeva**